QANUN № 06 (380), 2026, s. 199-212

Pərviz Lalə Pərviz qızı,
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 4-cü kurs tələbəsi
E-mail: laleperviz2005@gmail.com

UOT 342.95
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0185

İNZİBATİ MƏHKƏMƏLƏRDƏ İŞ YÜKÜNÜN AĞIRLIĞININ SƏBƏBLƏRİ VƏ HÜQUQİ NƏTİCƏLƏRİ

Açar sözlər: *inzibati məhkəmələr, iş yükü, inzibati icraat, inzibati orqanlar, mümkünlük şərtləri, vahid məhkəmə təcrübəsi, ağlabatan müddət, inzibati şikayət, hüquqların müdafiəsi, məhkəmə fəaliyyətinin səmərəliliyi.*

Ключевые слова: *административное производство, административные суды, судебная нагрузка, административные органы, условия допустимости, единая судебная практика, разумный срок, административный спор, защита прав, административная жалоба.*

Keywords: *administrative proceedings, administrative courts, judicial workload, administrative authorities, admissibility requirements, uniform judicial practice, reasonable time, administrative dispute, protection of rights, administrative complaint.*

Müasir dövrdə dövlət idarəçiliyinin genişlənməsi və inzibati hüquqi münasibətlərin dinamik inkişafı inzibati hüquq münasibətlərinin artım tendensiyasını qaçılmaz etmişdir. İnzibati icraatın hüquqi tənzimlənməsi sahəsində qəbul olunmuş normativ aktların tətbiqi nəticəsində vətəndaşların öz hüquq və azadlıqları barədə məlumatlılıq səviyyəsi yüksəlmiş, onların inzibati orqanların fəaliyyətinə qarşı hüquqi müdafiə vasitələrindən istifadə imkanları genişlənmişdir. Bunun nəticəsində, inzibati məhkəmələrə edilən müraciətlərin sayında artım tendensiyası müşahidə olunmağa başlanılmışdır.

Eyni zamanda, inzibati mübahisələrin artması məhkəmə fəaliyyətinin səmərəliliyi, işlərə ağlabatan müddətdə baxılması və hüquqların effektiv müdafiəsi məsələlərini daha da aktual etmişdir. Bu baxımdan inzibati məhkəmələrdə iş yükünün artmasının səbəblərinin və nəticələrinin araşdırılması həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir.

İnzibati məhkəmələrdə iş yükünün artmasına səbəb olan hüquqi və praktiki amilləri araşdırmaq, həmin səbəblərin məhkəmə fəaliyyətinə və işlərə baxılma müddətinə təsirini təhlil etmək, eləcə də mövcud problemlərin aradan qaldırılması ilə bağlı müəyyən təkliflər irəli sürmək bu tədqiqatın əsas məqsədidir.

İnzibati hüquq münasibətləri çərçivəsində fəaliyyət göstərən inzibati orqanların, inzibati məhkəmələrin və inzibati mübahisələrdə iştirak edən digər hüquq subyektlərinin fəaliyyəti bu tədqiqatın obyektini təşkil edir.

İnzibati məhkəmələrdə iş yükünün artmasına təsir göstərən hüquqi və praktiki məsələlər, inzibati icraat münasibətləri, inzibati mübahisələrin yaranma səbəbləri və həmin səbəblərin məhkəmə fəaliyyətinə təsiri bu tədqiqatın predmetini təşkil edir.

Tədqiqat zamanı müqayisəli-hüquqi, sistemli təhlil, normativ təhlil və məntiqi təhlil metodla-

rından istifadə edilmişdir. Bundan əlavə, inzibati hüquq sahəsində mövcud yerli və xarici qanunvericilik aktları, məhkəmə təcrübəsini özündə ehtiva edən qərarlar, hüquqi ədəbiyyat nümunələri və statistik məlumatlar təhlil edilmişdir.

Ümumi qəbul olunmuş hüquqi düşüncəyə əsasən, inzibati hüquq dövlət idarəetməsi prosesində icra hakimiyyəti orqanları ilə fiziki və hüquqi şəxslər arasında yaranan ictimai münasibətləri tənzimləyən hüquq sahəsi kimi başa düşülür. Bununla belə, hüquqşünas alimlər tərəfindən bu hüquq sahəsinə fərqli anlayışlar verildiyinə də rast gəlinir. Prof. Fərhad Mehdiyevin fikrinə görə, inzibati hüququ inzibati idarəetmə orqanlarının səlahiyyət və öhdəliklərinin hüququdur [14, s. 28].

Hüquqşünas Bəxtiyar Atakişiyevə görə isə, inzibati hüquq dövlət hüququnun bir sahəsi olmaqla, başlıca vəzifəsi dövlət idarəçiliyi orqanlarının icraedici-sərəncamverici fəaliyyətlərindən törənən ictimai münasibətləri, digər dövlət orqanlarının idarəçilik fəaliyyətindən törənən ictimai münasibətləri və habelə ictimai təşkilatların idarəçilik xarakterli funksiyaları həyata keçirmələrindən yaranan ictimai münasibətləri nizama salmaqdan ibarətdir [13, s. 5].

Bu anlayışlardan da göründüyü kimi, inzibati hüquq dövlət idarəçiliyinin təşkili, icra hakimiyyəti orqanlarının fəaliyyəti və vətəndaşların hüquq və azadlıqlarının inzibati orqanların qanunsuz fəaliyyətindən qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnzibati hüququn əsas məqsədi dövlət idarəçiliyində qanunçuluğun təmin edilməsi və inzibati orqanların fəaliyyətinə hüquqi nəzarətin həyata keçirilməsidir.

Hər bir hüquq sahəsində olduğu kimi, inzibati hüquqla bağlı hüquq normaları da onun mənbələrində öz əksini tapır. Bu cür mənbələr siyahısına Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində qeyd edilən qanunvericilik sistemimizi təşkil edən normativ hüquqi aktları – Azərbaycan Respublikasının Konstitusiyasını, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanlarını, Nazirlər Kabinetinin qərarlarını, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarını (inzibati orqanların administrativ fəaliyyətləri, administrasiyanın səlahiyyətlərini və vəzifələrini, administrativ təşkilatlanmanı və inzibati qulluqçuların statusunu tənzimləmək aspektindən), məhkəmə qərarlarını, həmçinin beynəlxalq müqavilələri və digər aktları aid edə bilərik [14, s. 31]. Lakin bu normativ aktların hamısı inzibati hüququn əsas prinsiplərini özündə əks etdirmir Buna görə də inzibati hüququn əsas mənbələri qismində Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" Qanunu və İnzibati-Prosessual Məcəlləsi çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsinin 1-ci hissəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır və bunu həyata keçirməyin ilk üsullarından biri də vətəndaşın dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququdur [1, mad.57]. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Bundan başqa, Konstitusiyamızın 60-cı maddəsinin 1-ci hissəsinə görə isə, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər. Bununla yanaşı, Konstitusiyamızda dövlətin əsas quruluşunu, bu quruluşun təşkilatlanması və işləmə mexanizmini göstərən qaydalar da müxtəlif fəsillərdə öz əksini tapmışdır [1, mad. 60.4].

"İnzibati icraat haqqında" Qanun 21 oktyabr 2005-ci tarixdə qəbul olunmasına baxmayaraq, 1 yanvar 2011-ci ildə qüvvəyə minmişdir. Bu Qanunun 1-ci maddəsinə əsasən, o, inzibati akt-

ların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir. Bununla yanaşı, bu Qanunun müddəaları inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur. Yəni "İnzibati icraat haqqında" Qanun inzibati münasibətlərin vətəndaş və inzibati orqan arasındakı dövrünü əhatə etməklə məhkəməyə qədərki məsələləri tənzimləyir.

Bu Qanundan fərqli olaraq, 1 yanvar 2011-ci il tarixli Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmədə baxılmasının və həll edilməsinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir, yəni inzibati münasibətlərin vətəndaş və məhkəmə arasındakı dövrə aid hissəsini tənzimləyir [2, mad. 1.1]. Belə ki, inzibati orqanın inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciəti təmin edilmədikdə və ya bundan imtina edildikdə o, inzibati orqanın bu qərarından müvafiq aiddiyyət üzrə inzibati məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilər.

İnzibati hüququn əsas hüquqi əsaslarından biri də onun prinsipləridir. Bu prinsiplər özü əksini "İnzibati icraat haqqında" Qanunun "Ümumi prinsiplər" adlı 2-ci fəslində tapmışdır. Bu prinsiplərə aiddir: qanunçuluq, bərabərlik, etimad hüququnun qorunması, diskression səlahiyyətlərin həyata keçirilməsi, formal tələblərdən sui-istifadənin qadağan olunması, hüququn tətbiqindən imtinanın qadağan olunması, mütənasiblik, çoxun azı ehtiva etməsi, mötəbərlik prezumpsiyası.

Bundan başqa, "İnzibati icraat haqqında" Qanunda bu fəaliyyət ilə bağlı əsas terminlərin anlayışları da verilmişdir. Bu Qanunun 2.0.6-cı maddəsinə əsasən, inzibati icraat fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyətdir. İnzibati şikayət isə hüquqlarını və qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxsin inzibati aktdan, inzibati aktın qəbul edilməsindən imtinadan və yaxud orqanın hərəkət və ya hərəkətsizliyindən subordinasiya baxımından yuxarı inzibati orqana yazılı müraciətidir [3, mad. 2.0.5]. Qanundan çıxış edərək inzibati akt dedikdə, inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiri başa düşülür [3, mad. 2.0.2].

Son olaraq, inzibati orqanlar dedikdə, Qanunda Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxslər nəzərdə tutulur [3, mad. 2.0.1]. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2005-ci il tarixli Fərmanına görə, yuxarıdakı anlayışda qeyd edilən müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər [5, b. 2.3]. Nazirlər Kabinetinin "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 28 avqust 2007-ci ildə qəbul olunub

İPM ilə eyni gündə qüvvəyə minmiş Qərarında isə müvafiq olaraq inzibati orqanlarına hansı qurumların daxil olduğu konkret şəkildə öz əksini tapmışdır [6].

Qeyd olunan hüquqi və institusional çərçivə inzibati məhkəmələrdə iş yükünün formalaşmasına birbaşa təsir göstərən amillərin təhlili üçün əsas yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinin 1-ci hissəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. "İnzibati icraat haqqında" Qanunun 38-ci maddəsinə əsasən, maraqlı şəxsin inzibati icraatda vəkillə təmsil olunmaq və vəkilin yardımından istifadə etmək hüququ vardır. Həmçinin İnzibati Prosessual Məcəllənin 31-ci maddəsinə əsasən, inzibati məhkəmə icraatında inzibati məhkəmə icraatı iştirakçılarının vəkillə təmsil olunmaq hüququ vardır.

Yüksək keyfiyyətli hüquqi yardım göstərən şəxs qismində, bir qayda olaraq Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunu ilə müəyyən olunmuş qaydada fəaliyyət göstərən vəkillər çıxış edirlər. Həmin Qanunun 8.1-ci maddəsinə görə, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə bir ildən az olmayaraq iş stajı olan və ya elmi müəssisələrdə (təşkilatlarda) və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən, Vəkillərin İxtisas Komissiyasında peşə yararlığının müəyyən edilməsi məqsədilə yazılı testdən və müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş Azərbaycan Respublikasının vətəndaşları bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilərlər. Nəzərə alsaq ki, inzibati hüquq mübahisələrində tərəflərdən biri fiziki və ya hüquqi şəxs, digəri inzibati orqandır, bu cür hallarda vəkilin üzərinə böyük bir məsuliyyət düşür. Çünki o, vətəndaşı dövlət orqanına münasibətdə müdafiə edir [4].

Bu cür halları nəzərə alaraq, qanunverici orqan tərəfindən prosessual qanunvericilik aktlarında vəkillərin iştirakının məcburi olduğu hallar öz əksini tapmışdır. İPM-in 90.3-cü maddəsi Mülki Prosessual Məcəllənin kassasiya instansiyası məhkəməsində icraatla bağlı müvafiq müddəalarına istinad edir. MPM-in 67-ci maddəsinə baxsaq, müəyyən edirik ki, kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Buradan belə bir nəticə çıxır ki, kassasiya instansiyasında vəkilin iştirakı məcburi xarakter daşıyır. Bu hallarda, iddiaçı və ya cavabdeh kassasiya şikayəti verdikdə ona müvafiq olaraq vəkil orderini və etibarnaməni də əlavə etməlidirlər.

Təcrübədə müşahidə edilir ki, bəzi hallarda vəkillər vətəndaşlara hüquqi yardım göstərən zaman Ali Məhkəmənin İnzibati Kollegiyasının "İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair" 06 noyabr 2023-cü il tarixli Qərardadının normalarına əməl etməyərək vahid məhkəmə təcrübəsi formalaşmış işlər üzrə kassasiya şikayətlərini məhkəməyə ünvanlamış və ya kassasiya şikayətinin formal tələblərinə əməl etməmişlər. Ali Məhkəmənin 2025-ci il tarixli Hesabatının "Kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi ilə bağlı illər üzrə göstəricilər" adlı başlığında bununla bağlı statistik məlumatlar öz əksini tapmışdır.

Statistik məlumatlara görə, qeyri-mümkün sayılan işlərin sayı 2025-ci ildə digər illərə, əsasən də 2024-cü ilə münasibətdə 664 ədəd çox olmuşdur. Habelə 2025-ci ildə kassasiya şikayəti mümkün sayılmayan 1832 işdən 311 ədədi (17%) formal xarakterli pozuntular fonunda mövcud olmuşdur [8, s. 51].

Qanunvericiliyin tələblərinə əsasən həm iddiaçı, həm də cavabdeh, yəni vətəndaş və inzibati orqanlar hər ikisi kassasiya instansiyasında vəkillə təmsil olunurlar. İPM-in 94.1-ci maddəsinə əsasən, kassasiya şikayəti məhkəmə

qərarının tam formada təqdim olunduğu gündən 1 ay, məhkəmə qərardadının təqdim olunduğu gündən, həmçinin bu Məcəllənin 131.3-cü və 132.3-cü maddələrində nəzərdə tutulmuş hallarda 10 gün müddətində müvafiq apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir. Bu cür hallarda, tərəflər kassasiya şikayəti verdikdən sonra əgər məhkəmə icraatı zamanı kassasiya şikayətinin formal tələblərə əməl edilmədən ünvanlandığı müəyyən olunsa, bu zaman yuxarıda qeyd edilən 10 günlük və 1 aylıq müddətlər bitdiyi üçün vətəndaşın yenidən kassasiya şikayəti vermək hüququ olmur. Bu cür halların qarşısını almaq üçün vətəndaşlar və inzibati orqanlar tərəfindən vəkillərin öz fəaliyyətlərinə münasibətdə daha məsuliyyətli olmaları gözlənilir.

Təcrübə göstərir ki, inzibati məhkəmələrdə iş yükünün artmasına təsir edən əsas səbəblərdən biri də bəzi hallarda inzibati orqanların fəaliyyətində "İnzibati icraat haqqında" Qanunun ayrı-ayrı müddəalarının tətbiqi praktikasında müəyyən yanaşma fərqlərinin müşahidə olunmasıdır. Bəzi hallarda inzibati icraatın həyata keçirilməsi zamanı həmin qanunda nəzərdə tutulmuş prinsiplərin tətbiqi ilə bağlı praktik çətinliklər meydana çıxır ki, bu da vətəndaşların dinlənilmə hüququnun tam təmin olunmaması, eləcə də onların legitim gözləntilərinin lazımi səviyyədə nəzərə alınmaması halları ilə nəticələnə bilir. Bununla yanaşı, vətəndaş müraciətlərinin təmin edilməməsi ilə bağlı qəbul olunan imtina məktublarının kifayət qədər əsaslandırılmaması və ya ümumi xarakterli ifadələrdən ibarət olması da inzibati qərarların aydınlığı və əsaslandırılması baxımından müəyyən praktiki məsələlərin yaranmasına səbəb olur.

Eyni zamanda, Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən formalaşdırılmış vahid məhkəmə təcrübəsini formalaşdıran üçulduzlu və dördulduzlu qərar və qərardadlarının olmasına baxmayaraq, bu hüquqi mövqelərin inzibati praktikada tam şəkildə nəzərə alınmaması da bu sahədə iş yükünün çoxalmasına səbəb olan mühüm səbəblərdən biri kimi qiymətləndirilə bilər. Belə ki, bu təcrübənin inzibati orqanların fəaliyyətinə inteqrasiya edilməməsi inzibati praktikada bərabər yanaşma prinsipini pozaraq eyni xarakterli işlər üzrə fərqli və ya müxtəlif xarakterli işlər üzrə eyni qərarların qəbul edilməsinə səbəb olur. Buna görə də inzibati orqanlar tərəfindən müraciətləri təmin edilməyən vətəndaşlar aiddiyyəti üzrə inzibati məhkəmələrə müraciət etməli olurlar. Bu isə təkrar xarakterli işlərin məhkəmələrə daxil olmasına və onların iş yükünün çoxalmasına gətirib çıxarır.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verildiyi kimi, onların inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüquqları da təmin edilir. "İnzibati icraat haqqında" Qanunun 20.1-ci maddəsinə əsasən, hər bir şəxsin onun hüquq və qanuni maraqlarına bilavasitə aid olan məsələlərlə bağlı inzibati orqana müraciət etmək, vəsatət vermək və ya inzibati orqandan məlumat əldə etmək hüququ vardır. Bundan əlavə, Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan onun səlahiyyətlərinə aid olan məsələlər üzrə müraciətlərə baxmağa, həmin müraciətlər üzrə müvafiq qərar qəbul etməyə və ya məlumat verməyə borcludur [3, mad. 20.2]. Qanunvericiliyə görə, müraciət etmək dedikdə, maraqlı şəxsin inzibati orqana yönələn istənilən xahişi, tələbi və ya sorğusu başa düşülür. Maraqlı şəxs müraciətini ərizə, vəsatət və ya adi məktub kimi ünvanlaya bilər. Kifayət edir ki, təqdim olunan yazının mahiyyətindən aydın olsun ki, maraqlı şəxs inzibati orqandan nə isə istəyir. Bir qayda olaraq, müraciət inzibati aktın qəbul edilməsi (icazənin verilməsi, qadağanın müəyyən edilməsi və s.) və ya faktiki xarakterli hərəkətlərin (arayışların verilməsi, konk-

ret hərəkətin həyata keçirilməsi və s.) həyata keçirilməsi ilə bağlı olur [15, s. 163].

Yuxarıda qeyd edilənlərə əsasən də, barəsində müraciət edilmiş inzibati aktın qəbul edilməsi inzibati orqanın səlahiyyətinə aid olduğu halda, o öz vəzifə səlahiyyətlərinin həyata keçirilməsində passivlik göstərməyə haqlı deyildir. İnzibati icraatın digər mərhələlərində olduğu kimi, icraat qabağı münasibətlər də inzibati orqanın aktiv hərəkətləri ilə müşayiət olunur [15, s. 164]. Buna görə də inzibati orqan "İnzibati icraat haqqında" Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, inzibati aktı qəbul etməzdən əvvəl onun məzmunu, xüsusilə işin müəyyən edilmiş faktiki halları və həmin işlə bağlı nəzərdə tutulan tədbirlər haqqında maraqlı şəxslərə və ya onların nümayəndələrinə məlumat verməyə və bu barədə onların mülahizələrini dinləməyə borcludur [2, mad. 21.2].

Bununla yanaşı, vətəndaşın, yəni maraqlı şəxsin inzibati aktın qəbul edilməsi və ya ona məxsus olan hər hansı hüququn həyata keçirilməsi ilə bağlı inzibati orqana yazılı müraciətinə cavab olaraq inzibati orqan tərəfindən müvafiq məktub hazırlanır və bu məktub ya vətəndaşın müvafiq hüququnu təmin edilir, ya da onun bu hüququnun təmin edilməsindən imtina edilir. İnzibati aktın anlayışına baxsaq görərik ki, o, qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiri olmaqla, inzibati orqan tərəfindən qəbul edilməli, ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədi daşımalı və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaratmalıdır. Bu xüsusiyyətlər maraqlı şəxsin inzibati orqana ünvanladığı ərizəyə cavab olaraq inzibati orqan tərəfindən verilən cavab məktubunun xüsusiyyətlərinə uyğunluq təşkil etdiyinə görə, onu inzibati akt hesab etmək olar. Göründüyü kimi, inzibati orqan "İnzibati icraat haqqında" Qanunun 61-ci maddəsində inzibati aktın əsaslandırılması ilə bağlı nəzərdə tutulmuş normaları bu məktuba münasibətdə də tətbiq etməlidir.

Həmin Qanunun 61-ci maddəsinə əsasən, həmin maddənin 5-ci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, yazılı və ya yazılı formada təsbit olunmuş inzibati akt yazılı şəkildə əsaslandırılmalıdır. Əsaslandırma zamanı işin faktiki və hüquqi halları və bu halları təsdiq və ya rədd edən sübutlar, habelə inzibati akt qəbul edilərkən istinad olunan qanunlar və digər normativ hüquqi aktlar göstərilməlidir. İnzibati akt diskresion səlahiyyətlər daxilində qəbul edildiyi halda, inzibati orqan öz mülahizələrini dəqiq və aydın şəkildə əsaslandırmalıdır [3, mad. 61.3]. İnzibati orqan qəbul etdiyi aktı yalnız icraat zamanı tədqiq olunmuş faktlar və sübutlarla əsaslandırmağa borcludur [3, mad. 61.4].

Fəqət təcrübədə müşahidə edilir ki, bəzi hallarda inzibati orqanlar vətəndaşların və ya onların nümayəndələrinin dinlənilmə hüququnu təmin etmədiklərinə görə, işlə bağlı onların mülahizələrindən xəbərdar olmur, yalnız müraciətdə göstərilmiş arqumentlərə və sübutlara əsaslanırlar. Bu isə, bəzi hallarda imtina ərizəsinin "İnzibati icraat haqqında" Qanunda nəzərdə tutulmuş qaydada düzgün əsaslandırılmamasına, hətta "şablon" xarakterli imtinanın verilməsinə gətirib çıxarır. Belə olan halda isə, vətəndaş inzibati orqanın imtina məktubunu hansı hissədə mübahisələndirəcəyini müəyyən edə bilmir. Nəticədə, bütün bunlar vətəndaşın təmin edilməsini inzibati orqandan tələb etdiyi hüququ ilə yanaşı, onun dinlənilmək, etimad, əsaslandırılmış qərar almaq hüquqlarının pozulmasına gətirib çıxarır.

Təcrübədə olan digər bir problem isə, bəzi hallarda inzibati orqanlar tərəfindən vahid məhkəmə təcrübəsini özündə ehtiva edən Ali Məhkəmənin qərar və qərardadlarına konkret işlərə münasibətdə istinad etmədikləri zaman meydana gəlir. Belə ki, qanunvericiliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı çoxsaylı

hüquqi məsələlər üzrə vahid yanaşma formalaşdırılmış bu qərar və qərardadlar konkret məsələlərə münasibətdə konkret praktika yaradaraq bundan sonra mövcud olacaq eyni xarakterli mübahisələrlə bağlı bu təcrübənin tətbiq edilməsini tələb edir. Məsələn, 17 fevral tarixli, 01/2022 nömrəli "İnzibati məhkəmə icraatına üçüncü şəxslərin cəlb edilməsi və onların hüquqi madafiə vasitələrindən istifadə hüquqlarına dair" Qərardad, 13 iyun 2022-ci il tarixli, 2-1(102)-578/2022 nömrəli "Teplovoz maşinistləri və maşinist köməkçilərinin güzəştli şərtlərə yaşa görə əmək pensiyası hüququna dair" Qərar, 18 oktyabr 2023-cü il tarixli, 2-1(102)-1765/2023 nömrəli "Müharibə veteranı adı və vəsiqəsinin verilməsi, özünümüdafiə batalyonlarının tərkibində döyüşmüş şəxslər, yerli icra hakimiyyəti orqanlarının təsdiq etdiyi siyahılara dair" Qərar və s.

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının 06 noyabr 2023-cü il tarixli, 01/2023 nömrəli "İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair" Qərardadında göstərilir ki, Ali Məhkəmənin formalaşmış məhkəmə təcrübəsinə uyğun çıxarılmış qərarlardan verilmiş şikayətlər heç bir əhəmiyyətli yeni faktiki və hüquqi dəlillərə istinadla əsaslandırılmamışsa, həmin şikayət "formal" xarakter daşımaqla, məhkəmə prosesinin müddətinin uzanmasına, şəxslərin hüquqlarının bərpasının yubanmasına, məhkəmələrin əsassız olaraq işlə yüklənməsinə gətirib çıxarır. Əks hal, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini təmin etməyə imkan verən hüquqi mexanizmlərin əhəmiyyətini heçə endirir [7, b. 22]. Qeyd edilənləri nəzərə almaqla məhkəmə tərkibi hesab etmişdir ki, iş üzrə verilmiş kassasiya şikayəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarında, Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarında, İPM-in 98-1-ci maddəsində müəyyən edilmiş qaydada qəbul edilmiş qərardadlarda, habelə baxılan işlər üzrə məhkəmə tərkiblərinin və Ali Məhkəmənin Plenumunun qərarlarında təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin dəyişdirilməsinə nail olmaq məqsədilə yeni faktiki və hüquqi dəlillərə istinadla əsaslandırılmadıqda, şikayət lazımi qaydada əsaslandırılmamış hesab edilməlidir. Belə şikayətlər əsaslandırma tələbinə riayət edilmədən verilmiş şikayət hesab edilməklə mümkün sayılmamalıdırlar [7, b. 23].


Bu qərar və qərardadlar yalnız inzibati məhkəmələr tərəfindən müvafiq işlər üzrə tətbiq olunması üçün qəti xarakter daşımır. Müvafiq olaraq da inzibati orqanlara təkrarlanan xarakterli müraciətlər daxil olduğu zaman onların da bu qərar və qərardadları öz inzibati praktikalarında tətbiq etməsini və vətəndaşların bərabər yanaşma və etimad hüquqlarının təmin edilməsini təmin etməyə yönəlir.

"İnzibati icraat haqqında" Qanunun 12-ci maddəsində nəzərdə tutulmuş bərabərlik prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən konstitusion prinsip hesab olunur. Həmin Qanuna əsasən, hamı qanun və inzibati orqan qarşısında bərabərdir. Bununla yanaşı, həmin maddədə bərabərliyin təmin edilməsi üçün konkret meyarlar da müəyyən edilmişdir. Qanunun 12.2-ci maddəsinə görə, inzibati orqan tərəfindən eyni mühüm faktiki hallara malik olan müxtəlif işlər üzrə müxtəlif qərarların qəbul edilməsi qadağandır, yəni şəxslərin xüsusiyyətlərindən asılı olaraq müxtəlif vaxtlarda, amma eyni tərkib üzrə müxtəlif qərarların qəbul edilməsi istisna edilmişdir. Bundan əlavə, müxtəlif hallar üzrə eyni qərarın qəbul edilməsi də Qanunun 12.3-cü maddəsinə əsasən qadağandır. Bu qaydaya riayət edilməməsi, digər prinsiplərin – etimad hüququnun qorunması və mütənasiblik prinsipinin də pozulmasına səbəb olur [15, s. 144].

"İnzibati icraat haqqında" Qanunun 13.1-ci maddəsinə görə, inzibati orqanların inzibati praktikasına fiziki və ya hüquqi şəxslərin etimadı qanunla qorunur. Buradan da görünür ki, vətəndaşın inzibati orqana etimadı ilk növbədə inzibati praktika ilə bağlı yaranır. Yəni inzibati orqanın müstəqil hərəkət etdiyi "sərhədlər" etimadın yarandığı sahəni müəyyən edir. Ancaq qanunun icrasından söhbət getdiyi halda, maraqlı şəxsin qanuna olan etimadından danışmaq olar [15, s. 147].


İnzibati orqanın praktikası davamlı və ümumi xarakter daşımalıdır. Maraqlı şəxsin etimad hüququ ancaq o halda təmin oluna bilər ki, inzibati orqanın hərəkətlərinin gedişi əvvəlcədən bilinsin. İnzibati orqan, ona görə də heç bir əsas olmadan öz praktikasını dəyişməməlidir (həmin Qanunun 13.2-ci maddəsinə əsasən, yalnız ictimai maraqların tələb etdiyi hallarda mövcud inzibati praktika yeni praktika ilə dəyişdirilə bilər). Maraqlı şəxs təxminən bilməlidir ki, onun işi inzibati praktikaya uyğun qaydada və həll edilmiş oxşar işlərə analoji qaydada həll ediləcəkdir [15, s. 147].

Amma bu məsələ ilə bağlı Ali Məhkəmənin hesabatlarına baxdıqda görürük ki, bəzi hallarda vahid məhkəmə təcrübəsini özündə ehtiva edən qərar və qərardadları inzibati orqanlar öz inzibati praktikalarında tətbiq etmədiklərinə görə, təkrarlanan xarakterli işlər üzrə inzibati məhkəmələrə iddia ərizələri təqdim olunur. Belə ki, Ali Məhkəmənin 2025-ci tarixli hesabatında "Kassasiya baxışının nəticələri" və "Ali Məhkəmənin İnzibati Kollegiyasının "İnzibati məhkəmə icraatında kassasiya şikayətinin mümkünlüyünə dair" 06 noyabr 2023-cü il tarixli Qərardadının tətbiqi ilə bağlı mümkün sayılmayan kassasiya şikayətlərinin inzibati orqanlara münasibətdə bölgüsü" adlı başlıqlara baxsaq, görərik ki, bəzi inzibati orqanlar vahid təcrübəyə uyğun hesab edilmiş işlər üzrə iddiaçı qismində çıxış edərək Ali Məhkəməyə kassasiya şikayəti vermiş, vətəndaşların müraciətlərinə cavab verən zaman bu təcrübəni nəzərə almamışlar [Şəkil 1 və 2].


AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNİN
2025-Cİ İL ÜZRƏ FƏALİYYƏTİNƏ DAİR HESABATI

Kassasiya baxışının nəticələri


İş üzrə tərəf olan inzibati orqan	Cəmi	Dövlət hesabına ödənilmişdir	Ləğv edilmiş ibtidai qərar (tam və ya qismən) olunmuşdur (faizlə)	İşi üzrə icrata xitam verilmiş	Kassasiya icraatına xitam verilmiş	Kassasiya şikayəti təmin edilmişdir	Vəkil məhkəmənin icatihsöneldilmiş hesaba gəlmiş
Dövlət Vergi Xidməti və tabeliyində olan qurumlar	267	39	55 (20,6%)	5	-	6	162
Dövlət Sosial Müdafiə Fondu və tabeliyində olan qurumlar	161	7	2 (1,2%)	1	-	2	149
Əmlak Məsələləri Dövlət Xidməti və tabeliyində olan qurumlar	14	5	4 (28,6%)	-	-	4	1
Yerli icra hakimiyyəti orqanları	11	10	-	-	-	-	1
Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi	9	1	3 (33,3%)	-	-	-	5
Digər orqanlar	30	13	10 (33,3%)	-	1	4	2
Cəmi	492	75	74 (15%)	6	1	16	320



İnzibati məhkəmələrdə iş yükünün ağırlığının bir sıra hüquqi nəticələri mövcuddur. Bunlardan biri bir hakimə füşən iş yükünün ağırlığının çoxluğudur. Məhkəmə Hüquq Şurasının 2025-ci il ərzində məhkəmələrdə baxılan işlərlə bağlı Hesabatında göstərilir ki, inzibati məhkəmələrdə il ərzində 17 467 işə baxılmışdır. [10, s. 24] Statistik məlumatlardan da göründüyü kimi, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən 6 inzibati məhkəmənin hər birinə orta hesabla 2911 iş daxil olub. Məhkəmə Hüquq Şurasının məlumatlarına əsasən, Azərbaycan Respublikasının inzibati məhkəmələrində fəaliyyət göstərən hakimlərin sayı 45 nəfərdir və onların hər birinin icraatına il ərzində 65 iş daxil olur [11]. Lakin bu


statistika, yəni bir hakimə düşən iş sayı inzibati məhkəmənin yerləşdiyi bölgədən və hakimlərin sayından asılı olaraq dəyişir.

Apellyasiya məhkəmələrinin inzibati kollegiyalarına münasibətdə onlara daxil olan iş sayları ilə bağlı statistik məlumatlar isə Ali Məhkəmənin İnzibati Kollegiyasının 2025-ci il ilə bağlı Hesabatında öz əksini tapmışdır [Şəkil 3].



Belə ki, həmin Hesabata əsasən müəyyən edilir ki, 2025-ci il ərzində bir hakimin icraatında Bakı Apellyasiya Məhkəməsi üzrə 169 iş, Sumqayıt Apellyasiya Məhkəməsi üzrə 140 iş, Gəncə Apellyasiya Məhkəməsi üzrə 85 iş, Şəki Apellyasiya Məhkəməsi üzrə 107 iş, Şirvan Apellyasiya Məhkəməsi üzrə 102 iş, Naxçıvan Ali Məhkəməsi üzrə 28 iş olmuşdur [8 və 11].

Həmin Hesabata əsasən müəyyən edilir ki, 2025-ci ci il üzrə Ali Məhkəməyə 5227 inzibati iş daxil olmuş və bu isə keçən ilə münasibətdə 17,8% çox olmuşdur (2024-cü ildə 4438 iş) [Şəkil 4].



Buradan belə nəticə çıxır ki, kassasiya instansiya üzrə fəaliyyət göstərən bir hakimə bir il ərzində düşən iş sayı 653 ədəddir. Bu isə nəinki bir hakimin iş yükünün artmasına, həmçinin ümumi məhkəmə üzrə iş qrafikasında bir sıra ağır nəticələrə səbəb olur [8, s. 48 və 9].

Digər bir nəticə isə vətəndaşlara münasibətdədir – onların şikayətlərinə baxılmasının uzanır və onların hüquq və azadlıqlarının bərpasının uzun müddət ərzində mümkün olmur. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin 2-ci hissəsinə əsasən, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Bununla yanaşı, Avropa İnsan Hüquqları Konvensiyasında da məhkəmə araşdırmasının ağlabatan müddət ərzində həyata keçirilməli olması ilə bağlı müddəa nəzərdə tutulmuşdur.

İnzibati Prosessual Məcəllədə isə inzibati işlərə baxılmasının konkret müddəti nəzərdə tutulmamışdır. Bununla belə, məhkəmə müdafiəsi hüququnun mahiyyəti və inzibati hüququn ümumi prinsipləri nəzərə alınmaqla, inzibati işlərə məhkəmədə baxılması "ağlabatan müddət" çərçivəsində həyata keçirilməsi tələb olunur. "Ağlabatan müddət" dedikdə, ədalət mühakiməsinin onun effektivliyinə və etibarlılığına xələl gətirə bilən gecikmələrə yol vermədən həyata keçirildiyi müddət nəzərdə tutulur. Belə ki, Avropa İnsan Hüquqları Məhkəməsinin formalaşmış təcrübəsinə əsasən, işin həll edilmə müddətinin ağlabatan olub-olmaması işin mürəkkəbliyi, tərəflərin davranışı, məhkəmə və digər dövlət orqanlarının fəaliyyəti, eləcə də mübahisənin tərəf üçün əhəmiyyəti kimi meyarlar əsasında müəyyən olunur [17, s. 53].

Avropa komissiyasının Azərbaycan Respublikasında ədalətin effektivliyini yoxlamaq məqsədi ilə apardığı yoxlamanın nəticəsində müəyyən olunmuşdur ki, 2024-cü il ərzində Azərbaycanda bir ədəd inzibati mübahisəyə birinci instansiya məhkəmələrində, yəni inzibati məhkəmələrdə təxminən 260 günə baxılmışdır

[19, s. 17]. Apellyasiya məhkəmələrinin inzibati kollegiyalarının hakimləri tərəfindən bir işə baxılması müddəti isə 105 gün təşkil etmişdir [19, s. 19]. Onların statistik məlumatlarında bir inzibati işin kassasiya məhkəməsində icraatının nə qədər müddətə davam etməsi ilə bağlı məlumat qeyd edilməsə də, yuxarıda qeyd etdiyimiz apellyasiya məhkəməsinin inzibati kollegiyasında bir hakimə düşən iş sayı ilə Ali Məhkəmədə bilərik, bu müddət apellyasiya icraatından 5-6 dəfə uzun müddətə başa çatır. Yəni əgər bir iş üzrə icraat hər üç instansiya məhkəməsi üzrə davam edərsə, onun başa çatması 1,5–2 il, hətta daha uzun müddət tələb edəcəkdir.

Təcrübədə müşahidə olunanlar onu deməyə əsas verir ki, məhkəmələr tərəfindən vətəndaşlara yardım etmək vəzifəsi yerinə yetirilməklə ağlabatan müddət anlayışı çərçivəsində hərtərəfli formada onların şikayətlərinə baxılır, fəqət bəzi hallarda işlərə baxılması müddətinin bu qədər uzanması vətəndaşların qanunla qorunan mənafelərinə mənfi təsir göstərir. Beləliklə, inzibati məhkəmələrə daxil olan işlərin sayı çox olduğu üçün bu cür mübahisələrin həll edilməsi bir az daha artıq vaxt tələb edir ki, bununla da vətəndaşlar öz hüquq və azadlıqlarını həyata keçirməkdə bəzi çətinliklərlə üzləşirlər, çünki məhkəmə qərarı olmasa, onların müvafiq hüquqları tanınmaz və ya qanunsuz inzibati akt ləğv olunmaz. Buna görə də işlərin çoxluğu məhkəmələrlə yanaşı, vətəndaşların da mənafeyinə mənfi təsir göstərir.

Bu halların aradan qaldırılması istiqamətində yeni mexanizmin tətbiqi məqsədəuyğun hesab edilir. Belə ki, "İnzibati icraat haqqında" Qanunun 71.1-ci maddəsinə əsasən, maraqlı şəxslər hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə inzibati aktdan və ya inzibati aktın qəbul edilməsindən imtinadan şikayət vermək hüququna malikdirlər. Həmçinin, həmin Qanunun 72.1-ci maddəsinə əsasən, inzibati aktdan şikayət inzibati qaydada və ya məhkəmə qaydasında verilə bilər. Və inzibati aktdan eyni zamanda həm inzibati, həm də məhkəmə qaydasında şikayət (inzibati iddia) verildiyi hallarda, şikayətə məhkəmə qaydasında baxılır və şikayət instansiyasında həmin şikayət üzrə başlanılmış icraata xitam verilir [3, mad.72.2]

Qanundan da göründüyü kimi, inzibati qaydada şikayət məhkəmə qaydasında şikayətə alternativ olmaqla, inzibati idarəçilik daxilində həll edilən, daha doğrusu subordinasiya baxımından yuxarı inzibati orqan tərəfindən baxılan şikayət növdür [15, s. 401]. Vətəndaş inzibati aktdan və ya inzibati orqanın hərəkətindən ya inzibati orqana və ya yuxarı inzibati orqana, ya da məhkəməyə şikayət edə bilər. Yəni Qanun eyni zamanda hər iki qaydada şikayət institutlarından istifadə etmək imkanını istisna edir. Hüquq ədəbiyyatında bunu iki səbəblə əsaslandırırlar. Birincisi, iki fərqli qərarın qəbul edilməsi ehtimalını ləğv etməkdirsə, ikincisi, həm məhkəmə, həm də inzibati orqan tərəfindən eyni iş barəsində araşdırma aparmaqla, əlavə itkinin olmasının qarşısını almaqdır [15, s. 402].

Almaniya Federasiyasının İnzibati Prosessual Məcəlləsində isə fərqli mövqe nəzərdə tutulmuşdur. Həmin Məcəllənin 68-ci maddəsinə əsasən ("Widerspruch" mərhələsi), müvafiq olaraq məhkəmədə ləğvedici iddia qaldırmazdan əvvəl inzibati aktın qanuniliyi və məqsədəuyğunluğu ilkin icraatla nəzərdən keçirilir. Əgər qanun başqa qayda nəzərdə tutulmuşdursa və aşağıdakı hallar mövcuddursa, belə bir nəzərdən keçirilməyə ehtiyac yoxdur:

1. inzibati akt ali federal orqan və ya ali Ştat orqanı tərəfindən qəbul edilmişdirsə, əgər qanun nəzərdən keçirilməni təyin etməyibsə;

2. düzəliş bildirişi və ya etiraza dair qərar şikayəti ilk dəfə özündə əks etdirirsə.

Əgər inzibati aktın icrasına dair müraciət rədd edilibsə, 68.1-ci maddənin müddəaları inzibati aktın icrasına dair hərəkətə də uyğun olaraq tətbiq olunur [18, mad. 68].

Bundan əlavə, həmin Məcəllənin 72-ci maddəsinə görə, əgər səlahiyyətli orqan etirazı əsaslı hesab edirsə, şikayəti təmin edə, qanunsuz inzibati aktı ləğv edə və xərclər barədə qərar qəbul edə bilər ("Abhilfe" – özünü düzəltmə mərhələsi). 73-cü maddəyə əsasən isə, əgər səlahiyyətli orqan etirazı aradan qaldırmazsa, etirazla bağlı qərar verilir. Bu qərar aşağıdakılar tərəfindən verilir:

1. qanunla başqa bir yuxarı səlahiyyətli orqan müəyyən edilmədikcə, növbəti yuxarı səlahiyyətli orqan tərəfindən,

2. əgər növbəti yuxarı səlahiyyətli orqan federal və ya ali Torpaq səlahiyyətlidirsə, inzibati aktı verən orqan tərəfindən,

3. özünüidarə məsələlərində, qanunla başqa cür müəyyən edilmədikcə, özünüidarə orqanı tərəfindən [18, mad.72].

Yəni inzibati orqan öz qərarını düzəltməzsə, bu zaman yuxarı inzibati orqan məsələ ilə bağlı qərar qəbul edir ("Widerspruchsbescheid" mərhələsi) və bu, məhkəməyə ("Verwaltungsgericht" mərhələsi) qədər həll edilir.

Almaniya İnzibati Prosessual Məcəlləsinin 68-ci maddəsinin məzmunundan da göründüyü kimi, əgər qanunvericlikdə xüsusi qaydalar nəzərdə tutulmayıbsa, vətəndaş inzibati orqanın aktlarından və hərəkətlərindən məhkəmə qaydasında şikayət verməmişdən öncə inzibati orqana və yuxarı inzibati orqana şikayət verməlidir. Bu isə o deməkdir ki, bəzi mübahisələr məhkəməyə qədər inzibati orqanla vətəndaş arasında həll oluna bilmə ehtimalına malikdir və bu qayda vətəndaşın məhkəməyə müraciət etmək hüququnu məhdudlaşdırmır.

Almaniya Federal Əmək Agentliyi tərəfindən verilmiş statistik məlumatlar göstərir ki, 2025-ci ildə 501 667 şikayət Widerspruch (inzibati şikayət) qaydasında inzibati orqana edilmiş və onlardan ancaq 53 164 iş üzrə məhkəmə icraatı mövcud olmuşdur. Bundan başqa, həmin məlumatlarda göstərilir ki, şikayətlərin təxminən 61% ya rədd edilmiş və ya geri götürülmüşdür. Təxminən 30% hallarda isə qərar dəyişdirilmişdir. Bu isə onu deməyə əsas verir ki, hər üç 3 işdən biri inzibati orqan tərəfindən öz qərarını dəyişmək yolu ilə həll edilmişdir [16].

Buradan belə bir nəticə çıxır ki, bu mexanizm vasitəsilə inzibati orqan və vətəndaş arasındakı mübahisə məhkəməyə qədər həll olunmaqla inzibati məhkəmələrdə iş yükünün ağırlığını azaltmaq istiqamətində mühüm əhəmiyyət kəsb edir. Bu üsulla inzibati orqanlar öz praktikalarında yol verdikləri boşluqları aradan qaldırmaqla vahid inzibati praktika formalaşdıra, bu praktikaya vətəndaşların etimadını qazana, "özünü düzəltmə" yolu ilə Almaniyada müşahidə olunan statistik göstəricilərə Azərbaycan Respublikasında da nail ola bilərlər.

Təcrübə onu göstərir ki, Azərbaycan Respublikasında bir sıra inzibati orqanlar tərəfindən onların inzibati aktlarından verilmiş şikayətlərə baxılması üçün Apellyasiya Şuraları yaradılmışdır. Bu cür orqanlardan biri də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyidir. İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin strukturunun, strukturuna daxil olmayan tabeliyindəki qurumların, Nazirliyin təsisçisi olduğu, səhmlərinin saxlanılması və ya idarə olunması Nazirliyə həvalə olunmuş hüquqi şəxslərin qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verdikləri şikayətlərə, habelə Nazirliyin strukturunda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır. Apellyasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin aktlarını, Azərbaycan Respubli-

kası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"ni və digər normativ hüquqi aktları rəhbər tutaraq öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq və qərəzsizlik prinsipləri əsasında qurur [12].

Yuxarıda qeyd edilmiş Ali Məhkəmənin İnzibati Kollegiyasının Hesabatından da göründüyü kimi İqtisadiyyat Nazirliyinin tabeliyində və ya yanında fəaliyyət göstərən qurumların inzibati aktlarından və ya onun hərəkətlərindən verilmiş şikayətlər digər inzibati orqanlara münasibətdə azlıq təşkil edir. Bu isə məhkəməyə qədər həll üsulu kimi onu deməyə əsas verir ki, bu cür mexanizmlər inzibati məhkəmələrdəki iş yükünün azaldılması yolunda effektiv addımlardır.

İnzibati məhkəmələrdə iş yükünün azaldılması və işlərə baxılma keyfiyyətinin artırılması məqsədilə irəli sürülən digər bir təklif vəkillər və inzibati orqanlarda fəaliyyət göstərən mütəxəssislər üçün Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən inzibati hüquq sahəsində formalaşmış məhkəmə təcrübəsinin, o cümlədən hüquqi mövqelərin və presedent xarakterli qərarlarının onlara mütəmadi şəkildə izah edilməsi istiqamətində təlimlərin və praktiki seminarların təşkili ilə bağlıdır.

Qeyd olunmalıdır ki, hazırda Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, Ədliyyə Akademiyası və bir çox inzibati orqanlar tərəfindən bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilsə də, bu fəaliyyətlərin daha sistemli və institusional şəkildə, xüsusilə məhkəmə təcrübəsinin formalaşdırılmasında əsas rol oynayan Ali Məhkəmənin iştirakı ilə həyata keçirilməsi daha effektiv nəticələrin əldə olunmasına şərait yarada bilər. Həmçinin inzibati orqanların öz daxilində Ali Məhkəmənin vahid məhkəmə təcrübəsini formalaşdıran qərar və qərardadlarında olan hüquqi mövqenin öyrənilməsi istiqamətində müəyyən addımların atılması da bu yöndə əhəmiyyətli nəticələrin əldə olunmasına səbəb ola bilər.

Belə təlim və görüşlər vasitəsilə həm vəkillərin, həm də inzibati orqanların əməkdaşlarının hüquqi bilik və bacarıqlarının artırılması, inzibati mübahisələrin düzgün hüquqi qiymətləndirilməsi və məhkəmə təcrübəsinə uyğun yanaşmanın formalaşdırılması təmin oluna bilər. Bu isə nəticədə məhkəmələrə təqdim olunan iddia ərizələrinin və şikayətlərin daha keyfiyyətli hazırlanmasına, hüquqi əsaslandırmanın gücləndirilməsinə və nəticə etibarilə məhkəmələrdə iş yükünün optimallaşdırılmasına müsbət təsir göstərə bilər.

Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, müasir dövrdə inzibati münasibətlərin genişlənməsi, dövlət idarəetmə fəaliyyətinin intensivləşməsi və vətəndaşların öz hüquq və qanuni mənafelərinin müdafiəsinə daha həssas yanaşması inzibati mübahisələrin sayının artmasına səbəb olmuşdur. Bu isə öz növbəsində inzibati məhkəmələrdə iş yükünün artmasını və işlərə baxılma müddətinin uzanmasını şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Məhz bu hallar mövzunun aktuallığını müəyyən etmiş və onun elmi-praktik baxımdan araşdırılmasını zəruri etmişdir.

Araşdırma göstərir ki, inzibati məhkəmələrdə iş yükünün artmasına təsir göstərən hallar nəticə etibarilə inzibati məhkəmələrdə bir hakimə düşən iş yükünün artmasına, işlərin daha uzun müddət ərzində baxılmasına və məhkəmə icraatının effektivliyinin azalmasına gətirib çıxarır. Statistik məlumatlar və beynəlxalq hesabatlar da göstərir ki, iş yükünün artması tendensiyası, ümumilikdə məhkəmə sisteminin səmərəliliyinə təsir göstərir. Eyni zamanda, bu mübahisələrin həll edilməsinin uzanması da insan hüquq və azadlıqlarının vaxtında təmin olunmasına mənfi təsir edir və hüquqi müdafiə mexanizmlərinin effektivliyini azaldır.

Yuxarıda qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

1. İnzibati mübahisələrin məhkəməyə qədər həlli mexanizminin gücləndirilməsi;

2. Vahid məhkəmə təcrübəsinin tətbiqinin gücləndirilməsi və institusional təlimlərin keçirilməsi.

Nəticə etibarilə qeyd etmək olar ki, inzibati məhkəmələrdə iş yükünün artması həm normativ tətbiq problemləri, həm də institusional və praktiki amillərlə bağlıdır. Bu problemlərin həlli isə yalnız qanunvericilik dəyişiklikləri ilə deyil, eyni zamanda hüquq tətbiqi praktikasının təkmilləşdirilməsi və vahid məhkəmə təcrübəsinə uyğunlaşdırılması ilə mümkün ola bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci il tarixli Qanun ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/897.

2. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi //30 iyun 2009-cu il Qanun ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46956.

3. Azərbaycan Respublikasının "İnzibati icraat haqqında" 21 oktyabr 2005-ci il tarixli Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/11254.

4. Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Qanunu. [Elektron resurs]/URL: https://frameworks.e-qanun.az/0/f_257.html.

5. Azərbaycan Respublikası Prezidentinin "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qaununun tətbiq edilməsi" barədə 28 dekabr 2005-ci il tarixli Fərmanı. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/11255.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 28 avqust 2007-ci il tarixli Qərarı. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/13839.

7. Azərbaycan Respublikası Ali Məhkəməsi İnzibati Kollegiyasının 06 noyabr 2023-cü il tarixli, 01/2023 nömrəli Qərardadı. [Elektron resurs]/URL: https://sc.supremecourt.gov.az/decision-search.

8. Azərbaycan Respublikası Ali Məhkəməsinin 2025-ci il üzrə fəaliyyətinə dair Hesabat. [Elektron resurs]/URL: https://supremecourt.gov.az/storage/pages/2320/ali-mehkeme-hesabat-2025-veb.pdf.

9. Azərbaycan Respublikası Ali Məhkəməsi, Hakimlər, İnzibati kollegiya, https://supremecourt.gov.az/az/ali-mehkeme/hakimler/inzibati-kollegiya.

10. Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının "Azərbaycanda məhkəmələrdə baxılan işlər barədə məlumat", 2025 (illik), Bakı 2026, 26 səhifə, https://jlc.gov.az/az/mehkeme-huquq-surasi/statistik-melumatlar.

11. Azərbaycan Respublikasının Vahid Məhkəmə Portalı. [Elektron resurs]/URL: https://courts.gov.az/jury.

12. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Apellyasiya Şurası. [Elektron resurs]/URL: https://www.economy.gov.az/az/page/muracietler/apellyasiya.

13. Atakişiyev Bəxtiyar Sərhəd oğlu. İnzibati hüquq və terminlər. Elmi əsər. – Bakı, – 2008. – 312 s. [Elektron resurs]/URL: https://anl.az/el/Kitab/2013/251957.pdf.

14. Mehdiyev Fərhad Sovet oğlu, "İnzibati hüquq", Ali təhsil müəssisələri üçün dərslik. – Bakı, 2010, – 515 s. [Elektron resurs]/URL: https://cdn.oyu.edu.az/ebooks/BM/Inzibati-Huquq.pdf.

15. "İnzibati icraat haqqında" Qanunun Kommentariyası. – Bakı: Hüquq ədəbiyyatıı, – 2006. – 464 s. [Elektron resurs]/URL: https://barassociation.az/web/uploads/files/Inzibati-komentaria.pdf.

16. Almaniya Federal Əmək Agentliyinin rəsmi statistikası. [Elektron resurs]/URL: https://www.politikexpress.de/b-rgergeld-widerspr-che-und-klagen-im-jahr-2025-ba-presseinfo-nr-3-2223259.html?utm_source=chatgpt.com.

17. Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi üzrə Təlimat, Avropa Şurası, Azərbaycan dilində, 2016, 71 səhifə. [Elektron resurs]/URL: https://ks.echr.coe.int/documents/d/echr-ks/guide_art_6_civil_aze.

18. Code of Administrative Court Procedure of Germany. [Electronic resource] /URL: https://www.gesetze-im-internet.de/englisch_vwgo/.

19. European Commission for the Effeciency of Justice (CEPEJ) , Strasburq, 11 iyun 2025-ci il. [Electronic resource] /URL: https://www.coe.int/documents/29148167/192423568/Azerbaijan%2B-%2Bdeliverable%2B2.pdf/627d6e8a-32e5-e5e0-88f5-01ae13554f3a?t=1764240732737&utm.

Парвиз Лала Парвиз гызы,
студент 4 курса Академии государственного управления
при Президенте Азербайджанской Республики

ПРИЧИНЫ БОЛЬШОЙ НАГРУЗКИ НА АДМИНИСТРАТИВНЫЕ СУДЫ И ИХ ПРАВОВЫЕ ПОСЛЕДСТВИЯ

РЕЗЮМЕ

Во вводной части исследования представлены сведения об актуальности темы, цели исследования, объекте, предмете и методах исследования. В последующем разделе раскрываются понятия административного права, административных органов и административного производства, а также исследуются правовая сущность и правовые основы последнего с точки зрения законодательства.

В следующей части проанализированы два фактора, оказывающие влияние на увеличение нагрузки на административные суды: подача обращений, не в полной мере соответствующих условиям процессуальной допустимости, а также отдельные проблемы применения Закона «Об административном производстве» в практике административных органов и недостаточная интеграция единой судебной практики, сформированной Верховным Судом, в административную практику. По данным вопросам также приведены статистические сведения.

В последующей части отражены последствия указанных факторов, в частности чрезмерное количество дел, приходящихся на одного судью, а также увеличение сроков рассмотрения жалоб граждан, что приводит к затягиванию восстановления и защиты их прав и свобод. В связи с этим предложены меры по устранению выявленных проблем.

В заключительной части кратко и содержательно изложены основные выводы, полученные в ходе исследования.

Parviz Lala Parviz,
4th-year student, Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

THE REASONS FOR THE HEAVY WORKLOAD IN ADMINISTRATIVE COURTS AND ITS LEGAL CONSEQUENCES

SUMMARY

In the introductory part of the research, information is provided on the relevance, purpose, object, subject, and research methods of the study. The following section defines administrative law, administrative authorities, and administrative proceedings, and examines the legal nature and legal basis of the latter from the perspective of legislation.

The next chapter analyzes two of the factors contributing to the increased workload of administrative courts: the submission of applications that do not fully comply with procedural admissibility requirements and certain shortcomings in the application of the Law on Administrative Proceedings in the practice of administrative authorities, as well as the insufficient integration of the uniform judicial practice established by the Supreme Court into administrative practice. Statistical data related to these issues have also been examined.

The subsequent section reflects the consequences arising from the above-mentioned factors, namely the excessive number of cases assigned to individual judges and the prolonged examination of citizens' complaints, resulting in delays in the restoration and protection of their rights and freedoms. Accordingly, proposals aimed at addressing the identified problems have been put forward.

The concluding part provides a concise summary of the findings and issues identified during the research.

Redaksiyaya daxilolma tarixi: 02.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 20.06.2026
Çapa qəbul olunma tarixi: 24.06.2026